# HƏYAT DÜŞÜNCƏLƏRİ

(Əvvəli ötən saylarımızda)

*Hikmət Mahmud ensiklopedik biliyə malik ziyalıdır.*
**Fuad Qasımzadə, akademik.**

*Hikmət Mahmud Azərbaycan qartalıdır.*
**Həsən Abdullayev, akademik.**

Hər bir şeir şairin düşüncəsində, mənəvi mühitində dolanan fikirlərin poetik ifadəsidir. Əlbəttə, şeirdə şairin dövrə münasibəti, qarşılaşdığı hadisələrdən təsirlənmə səbəbləri, bir sözlə, həyat qənaətləri öz əksini tapır. Yaşamaq, ömür, həyat... bütün bunlar şairin varlığında sözə çevirildikcə, onun yaradıcılıq dünyası bütövləşir, şair öz sözü ilə böyüyür, nə qədər bir insan kimi kamala dolursa, bir sənətkar kimi də kamilləşmə yolu keçir. Nəhayət, ömrün elə bir zamanı gəlir ki, həyat bütövlükdə şairin düşüncə aləmində mənzərə kimi görünür. Bu mənzərənin göz oxşayan, könül sevindirən məqamları olduğu kimi, könül bulandıran, şair ovqatını sarsıdan tərəfləri də az deyil. Ona görə də şair bu gün hər hansı bir mənzərədən heyranlıqla bəhs etdiyi kimi, sabah da onu qəzəbləndirən mənzərədən şikayət motivli şeirlər də yaza bilər.

Hikmət Mahmudun yaradıcılığının indiki dövrü ona görə həyat mənzərələrini müxtəlif rənglərdə göstərə bilir ki, o, yaşının, həyat təcrübəsinin açdığı imkanlarla müasir dünyanı kifayət qədər reallıqları ilə görə bilir. Ona görə də Hikmət Mahmudun son bir ilin ovqatını ehtiva edən şeirlərində ağ və qara notlar bir-birini sürətlə əvəz edir. Bu günün ovqatından danışanda sanki 90-cı illərin əvvəllərinidə yada salır. "Olsun" adlı şeirinin birinci bəndi Azərbaycan torpaqlarının az qala hərraca qoyulduğu dövrü acı bir təəssüratla göz önünə gətirir. Vətənin taleyini düşmən caynaqlarına verənləri yalnız qazanc maraqlandırır. Şairin nəzərində bu mənzərə də hər kəs özünün qınaq obyekti olur. Çünki, bütün imanını, vicdanını pula satanlar üçün Vətən anlayışı heç bir məna kəsb etmir.

Şair, öz mənfəəti naminə vicdanı ilə alver edənlərin qazancını ötəri, gəldi-gedər hesab edir. Müxtəlif dövlətlərin, ölkələrin, imperiyaların pulları bir zaman hakim olub. Amma, indi onlar yoxdur, meydanda dollar hakimdir. Bunun özü də bir gəldi-gedərlik rəmzidir.

Hər pulun, sikkənin öz tarixi var,
Bunu yaxşı bilir tarix yazanlar.
Olubdur dünyada çox valyutalar,
Bu gün at oynadır meydanda dollar.

Göründüyü kimi, vicdanını pula satanlar gərək bunu ibrət kimi qəbul etsin, başa düşsünlər ki, bir vaxt onların əməlləri araşdırılacaq, kimlikləri aydın görünəcək. Çünki, tarix həqiqət uğrunda mübarizədə kimsəyə güzəştə getmir. Axır ki, bir zaman olur, hər kəs öz əməlinin haqqını alır: cəzadırsa cəza, rəğbətdirsə rəğbət.

Hikmət Mahmud istər-istəməz yaşının həyat təcrübəsinin təsirilə indiki ovqatında nəsihətə, doğru-düzgün yol göstərməyə daha çox meyillidir. Çünki, şair özünün həyat təcrübəsindən yaxşı bilir ki, bugünkü səhvi sabah düzəltmək olmur. Hətta nəinki düzəltmək olmur, hətta buraxılan səhv yeni səhvlərə, yeni xoşagəlməz əməllərə də yol açır. Ona görə də öz övladının timsalında hər hansı bir addım üçün hər kəsə məsuliyyət daşıdığını xatırladır; əgər, həyat təcrübəsi az olan bir gənc vaxtında deyilən məsləhətdən nəticə çıxarsa, şübhəsiz, onun başı salamat olar. Ömür onun üçün əzaba çevrilməz. Yaşadığı ömürdə düz yol, halallıq onun üçün işığa çevrilər:

Gəlir gələn yerə xor baxma, bala,
Yoxsa ki, görərsən çox xəta-bəla.
Qazancın zər olsun, cah-cəlal olsun,
Nə olur qoy olsun, düz, halal olsun.

Şair düzlüyü, halallığı sağlam həyatın rəhni kimi görür, özünü, əsası hesab edir. Şair yaxşı bilir ki, çox vaxt həyatın verdiyi dərslərdən hamı eyni nəticəni çıxarmır. Ona görə də dünyamızda xeyirlə şərin bəzən gözə görünməyən qanlı savaşı bizi izləyir. Hikmət Mahmud sənətkar olaraq istəyir ki, insanlar böyük sözünü, müdrik sözünü düzgün qavrasınlar. O, şairi tərəfsiz həqiqət carçısı hesab edir. Şairin düşüncəsində, mənəvi mühitində hər kəsə hörmətlə yer var. Təki, hər kəs həyatı ləyaqətlə yaşamaq istəsin. Doğruluğu özünün Allahı bilsin, vicdan tərəzisini düzgün çəksin.

Sənətkarın son günlər yazdığı şeirlər arasında müasir dövrümüzün "İndi" adlı bir şeiri də var. "İndi" sözünü özü şairin müasir dövrə münasibətini ehtiva edir. Həyatın çox sürətlə rənglərə bölündüyü, insanların daha çox siyasiləşdiyi indiki zamanımızda hər kəs həqiqəti ancaq özünün mənfəət mövqeyindən qiymətləndirə bilir. Şair isə bələləri yox, həqiqət naminə sinəsini qabağa verənləri təqdir edir. Onun şeirinin lirik qəhrəmanı həyatın yaxşılıqlarını qoruyandır. "İndi" başlıqlı şeirdə oxuyuruq:

Şair kəs nə qəzəb, nə günah bilir,
Halal insanları dost, pənah bilir.
O, müqəddəs, müdrik, təmiz kəsləri
Elə bağlı insan, xeyirxah bilir.

Sənətkar üçün insanların dərdi onun öz dərdidir. İnsanların ağrı-acısı şairin, öz ağrı-acısıdır. Ona görə də şair hardasa, nə vaxtsa, kimisə dərdli görürsə, elə özünü dərdli görmüş kimi təsəvvür edir. O istəsə də, gördüyü dərd-kədər sahibinin yanından sükutla keçə bilməz. Ancaq, burası da var ki, dərdli insanları nəinki görmədən keçən, hətta onları ayaqlayıb keçməkdən belə çəkinməyənlər də var. Bələləri üçün doğma olsun, yad olsun - fərqi yoxdur, əgər, insana, dünyaya biganə olub öz mühitinə qapılıb yaşayırsansa onda, bəli, həyat təzadlı rənglərini də görə bilməyəcəksən:

Dərd çəkdi, qəm yedi sinəmdə ürək,
Yaxın bivec oldu, yadlarsa kələk.
Mənə arxa oldu yaradan fələk,
Qismətim nə görür, Tanrıdan gəlir.

Şair, qəza-qədəri də inkar etmir. Allahın varlığına tapınır. Hətta, inanır ki, şər xislətli insanlarla qarşılaşanda yalnız Allah ona yardımçı olub. Belə olan halda insan öz qəlbinin rahatlığı naminə Allahın varlığına tapınır, və özünü sakit hesab edir: Doğrudur, şair onu da bilir ki, zaman insanları qovur. İnsan heç özü də bilmir ki, ömürünün sonuna necə, hansı sürətlə gəlib çatır. Amma, ötmüş illərə baxdıqca yadda qalan xatirələri göz önünə gətirir. Və bu zaman yol verdiyi səhvlər üçün təəssüfləri qaçılmazdır.

Zaman qovur bizi, bizsə qaçırıq,
Sanki qanad açıb göydə uçuruq.
Bir də gördün tabutlarda köçürük,
Sən köçəndə kim ağlayır, kim gülür.

Şeirdəki əhval məşhur deyimi yada salır. Hər bir dünyadan köçən insanlığın itkisidir. Hər bir insan böyük insan aləminin zərrəsidir. Kimsə bunu anlayırsa, dərk edirsə, onda insan faciəsi onun üçün ağrısız ötə bilməz. Təəssüf ki, insanlığa biganə olanlar da az deyil. Elə şairi kədərləndirən də bu biganələrin mövcudluğudur. Və onların əməllərini yada saldıqca, düşündükcə Hikmət Mahmud onu çuğlamış olan, varlığına hakim olan dərdlərdən özünü üzülmüş bilir. O, bu dərdlərin sitəmindən nələr çəkdiyini yalnız qələminə deyir, bu dərdləri sözə gətirməklə təskinlik tapır:

Hikmət Mahmud, səni üzdü dərdlə qəm,
Haqsız kəslər tutdu sənə min sitəm.
Baş əydin, diz çökdün düzə dəmadəm,
İndi de, hansı düz sənlə qəlb bölür?

Şeirin möhür bəndindən də göründüyü kimi onun təəssüfü sonsuzdur. Çünki, həmişə düzlük önündə baş əyib, diz çöküb, amma bunu təqdir edənləri görməyib. Hətta, düz bildiklərinin özü belə onunla dərdini bölüşmək istəməyib. Bu, onu göstərir ki, şeirin lirik qəhrəmanı nə qədər səmimi olsa da, bu səmimiyyəti görənlər, duyanlar çox az olub. Demək şair üçün insanların səmimi ola bilməməsi də bir kədər mənbəyidir. Əgər, sənətkar bütün bunları özü üçün ağır olan bir tale yazısı kimi yazıya gətirirsə, deməki, onun gördükləri həm də həyat reallıqlarıdır. Şair neyləsin ki, özündən razı, hər kəsə irad tutan aristaxlar (özündən razılar) çox vaxt zəmanənin güc sahibinə çevrilirlər.

Hər bir şeirin müəllif ovqatı olduğunu düşünsək, onda razılaşmalıyıq ki, şair həm də zəmanəsinin psixoloji tarixini yaradır. Müasiri olan insanların ovqatını yazır. Elə bu səbəbdən də şeirləri yalnız bir qəlbin çırpıntıları kimi yox, həm də zamanın səsi kimi qəbul etməliyik.

Hikmət Mahmud Azərbaycan mənəvi mühitində olan problemləri və qara ləkələri də yaxşı görür. Onu da yaxşı görür ki, dövlət korrupsiyaya qarşı necə kəskinliklə mübarizə aparır. Demək, rüşvət də, yalan da xalq malına xor baxmaqda qənimətçilik yolu tutanlar kəskin mübarizə önündə, şübhəsiz, sarsılacaqlar. Ədalətli mühakimə qarşısında dayanacaqlar. Ona görə də şair kimlərinsə cinayət yoluyla mənəm-mənəmliyini də gəldi-gedər hesab edir və elə bu ovqat altında "Gəldi-gedərdi" adlı şeirilə dövrün hadisələrinə başqa sözlə, xeyirlə-şərin mübarizəsinə münasibətini bildirir:

Rüşvətxorluq, qardaş, yaman dəbdədi,
Rüşvətxorun canı özgə cibdədi.
Məmur var ki, nəfəsi də yalandı,
Haqq-ədalət sözdədi, hay-küydədi.

Göründüyü kimi şair xeyir və şəri bütün kəskinliyi ilə sərhədlərə ayırır. Təəssüf ki, şəri təmsil edənlər arasında mənsəb sahibləri də var. Belə olanda sanki, ruhdan düşür kədərlənir. Hesab edir ki, haqq-ədalət sözdədir. Haqq-ədalət özünü həyatda təsdiq edə bilmir, gücsüzdür. Belə mühitdə maddi imkanları aşağı olan, tavanasız insanlar daha çox əziyyət çəkirlər. Çünki harınlamış olanlar kasıbları görmək istəmir. Onların haqqını tapdayıb keçirlər və şair belələri üçün sanki ağrı keçirir:

Kasıb insan, bu dünyanı dolan, gəz,
Kasıb kəsi varlı əvəz eyləməz.
Sadə olsan, düz dolansan həyatda,
Heç kəs sənə nə toxunmaz, nə dəyməz.

Buna baxmayaraq, şair tam bədbinliyə qapılmır. Hesab edir ki, insan düz dolansa, sadə olsa, yenə haqq onunla olar. Belə halda kimsə ona dəyməz dolaşmaz. Ömür yolunu, ona bəxş olunmuş insan ömrünü öz adına, ünvanına layiq yaşayar keçər:

Anlayaq ki, kasıb da bir insandır,
Qarğış etsən, qarğışı çox yamandır.
Kasıb olub peyğəmbər, övliya da,
Zalım olma, sonu ahdı, amandı.

Şair öz dünyasında hər şeyi öz nizamında görür. Hər kəs layiq olduğu yerdə dayanır. Çünki, şairin mənəvi mühitində həqiqət hakimdir, doğruluq, düzgünlük bu həqiqətin əsas yoludur. Ona görə də onun mənəvi dünyasında peyğəmbərlər, övliyalar varlı-kasıb olmasından asılı olmayaraq mənəvi mühiti sağlam olanlarla birgə tutulur:

Sadə olub insanlara qarış sən,
El dəbinə, adətinə alış sən.
Vəzifə də, var da gəldi-gedərdi,
Pak və müdrik insanlara qarış sən.

Böyüklüyün, müdrikliyin mahiyyəti əməldə görünür, sözdə təsdiqlənir. Şair də həyatın bu döyüşlərini sözə gətirir. Sənətkarın düşüncəsində olanlar, əslində, həyatdan gələnlərdir. Şair istəsə də, istəməsə də həyat ona acı həqiqətləri diktə eləyir. Həyat özü deyir ki: kim mənim qanunlarımı qəbul eləyirsə, o, yaşarılıq haqqı qazanır. Əlbəttə, bütün bunlar Hikmət Mahmudun mənəvi kimliyindən xəbər verir. Onun təbiətinin əzəmi böyüklüyündə görünən həyat mənzərələri bütün rənganəngliyi ilə oxucu diqqətində olur.

Hikmət Mahmud akademik Fuad Qasımzadə demiş ensiklopedik biliyə malik ziyalı olduğu üçün təkcə poetik tələbatla yazıb yaratmır. O, həm də həyati müşahidələrini, dünyagörüşü, bilik müstəvisində həll eləyir. Yalnız bundan sonra sözə gətirir. Bu yerdə akademik Həsən Abdullayevin də Hikmət Mahmud haqqındakı qənaətini yada salmaq yerinə düşərdi. Çünki o, Hikmət Mahmudu Azərbaycan qartalı adlandırırdı. Hikmət Mahmud üçün bu etiketlər hələ uzun illər bundan əvvəl olub. İndi isə həqiqətən Hikmət Mahmud ömür yolunun, həyat dağlarının zirvəsinə qalxıb. Və bu zirvədə o, özünün mənəvi böyüklüyünü və ucalığını, cəmiyyət üçün müəllimlik missiyasını, yeni nəsil üçün ustadlıq hökmünü öz sözü, yaradıcılığı ilə təsdiq edib.

Sözündə və əməlində böyüklük hər kəsə nəsib olmur. Hikmət Mahmud sözündə və əməlində böyüklüyün obrazıdır.

*21.10.2020*

*(Davamı var)*

*Əli Rza XƏLƏFLİ*